PAPER DETAILS

TITLE: CAHILIYY?T ?R?BL?RININ SINAMALARI V? B?ZI MÖVHUMI T?S?VVÜRL?RI

AUTHORS: Aida Sahlar QASIMOVA

PAGES: 256-266

ORIGINAL PDF URL: https://dergipark.org.tr/tr/download/article-file/288548

# CAHİLİYYƏT ƏRƏBLƏRİNİN SINAMALARI VƏ BƏZI MÖVHUMİ TƏSƏVVÜRLƏRİ

## Some Popular and Superstitious Beliefs of Pre-Islamic Arabs

**Aida Şahlar QASIMOVA***

***Özet:*** *Makalede İslam'a kadarki Arap toplumundaki sınamalar ve mefhumi düşünceler araştırılır. Makalede gösterilir ki, Arabistan'da dış çevre, bitki ve hayvanlar alemiyle bağlı bazı mefhumi tasavvurlar ve çeşitli araçlarla gelecekten haber verme cehtlerinin yaranmasının nedeni sahra hayatının zorlukları olmuştur. Makalede kuş uçuşuyla bağlı öngörmelere örnek olarak iyafet sanatı söz konusu edilmiştir.*
***Anahtar kelimeler****: İslam'a kadarki Arabistan, iyafet, öngörmeler, kuşlar, cahiliye şiiri*

***Abstract:*** *The article deals with the superstitions and obsessive reverences for some omens excited in Pre-Islamic Arabian society. It demonstrates that due to the peculiarities of the desert life i. e. perils hovered over the inhabitants of desert areas, there in Arabia appeared some superstitions connected with the natural phenomena, plant and animal life and some attempts were made to predict obscure future. The main attention is directed to the superstitions on birds and related to them foretelling, so-called Iyafat.*
***Key words****: Pre-Islamic Arabia, iyafat, foretelling, birds, Jahiliyya poetry.*

> *Hər insanın boynundan bir quş asar, sonra qiyamət günü onu çıxararıq.*
> ***(əl-İsra 13)***

Bəşər sivilizasiyasının ilkin dövrlərində insan ətraf aləmlə öz varlığı arasındakı bağlılığı daha güclü duymuş, təbiətdəki mübhəm harmoniya, hadisələr və əşyalar arasındakı ilişgilər çox zaman ayrı-ayrı təbiət hadisələrinin, bitki, heyvan və əşyaların ilahiləşdirilməsinə gətirib çıxarmışdır. Qızmar günəşin yandırdığı ucsuz-bucaqsız səhralarda məskən salmış cahiliyyət ərəbləri də amansız təbiət qarşısında üzüntülü bir vahimə keçirmiş, ətraf aləmin hər bir təzahüründə qeyri-adi,

* Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Ərəb ədəbiyyatı professoru

ilahi bir qüvvə görmüş, ağacları, daşları, bulaqları, ayrı-ayrı heyvan və quşları müqəddəsləşdirmişlər. Bu, bir tərəfdən onlar arasında bütpərəstliyin rəvac tapmasına gətirib çıxarır, digər tərəfdən də öncəgörmələrin, sınamaların, müxtəlif fal növlərinin yaranması ilə nəticələnirdi. Cahiliyyət ərəbləri arasında, xüsusilə quşlarla bağlı sınamalar geniş yayılmışdı.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, quş arxetipi müxtəlif xalqların mifik təsəvvürlərində, ədəbiyyatında, adət və ənənələrində dərin iz buraxmışdır. Mirça Eliada göstərir ki, əsrarəngiz uçuş bir çox xalqları cəlb etmiş, Sibir şamanları ölülərin ruhunu göylərə yola salarkən özlərini quş görkəminə salmışlar. Bu hal özünü bir sıra xalqların misteriyalarında da göstərmişdir. Bu cür «uçuş» əslində sırf ruhani xarakter kəsb edib ağlın gizli sirləri və metafizik həqiqətləri dərk etməsinə yönəlmişdir. Ona görə də, «Riqveda»da «ağıl ən sürətlə uçan quşdur» – deyilir. (9, 184) «Arif adamın qanadları olur» kimi qədim hind hikmətini xatırlayan M. Eliade göstərir ki, quşlarla bağlı iki mifik motiv güclü olmuşdur: 1) quş ruhu ifadə etmişdir. 2) quş ölən kəslərin ruhunu axirətə müşayiət etmişdir. (9, 184) Bu ilk növbədə quşların göylərə uçuşu ilə bağlı idi. Kosmosun üst qatı olan göylər öz uzaqlığı və əlçatmazlığı, heyrətamiz yeknəsəqliyi və nəhəngliyi, nəhayət anlaşılmazlığı ilə insanları daim heyran etmişdir. Göy cisimləri, istilik mənbəyi olan günəş, qaranlıq səmada parlayan ay və ulduzlar, göylərdən bir nemət, bəzən də bir bəla kimi nazil olan yağış, göy gurultuları, şimşək, ildırım və s. amilləri özündə hifz edən bu mübhəm səltənət barədə müxtəlif əfsanəvi təsəvvürlər yaranmış, yerdəki çoxsaylı bütlərə ibadət edən ərəblər harda isə səmanın ənginliklərində Vahid bir ilahi qüvvə olmasına da inanmışlar. Bədəvi ərəb heyranlıq və çaşqınlıq mənbəyi olan göylərə məhz quşların qanad çalıb uçmasına da ayrıca bir məna verib, onlarla bağlı çalarlı yozum və sınamalar uydurmuşdur. Ümumiyyətlə, müxtəlif dini-mifik təsəvvürlərdə ayrıca bir mifopoetik obraz və rəmz kimi quşlar ilahi mahiyyəti, kosmosun üst qatını, göyləri, günəşi, göy gurultusunu, küləyi və buludları, azadlıq, yüksəliş, tərəqqi və ilhamı, peyğəmbərlik və öncə görmələri, müxtəlif kosmik aləmlər arasındakı əlaqələri, ilahi ruhu və s. bildirmişlər. (8, II, 346) Quşlar bir rəmz kimi eləcə də Allahın elçilərini bildirir. (10, 323) Quş arxetipi əsatirlərdə, nağıl və dastanlarda, quşlarla bağlı çalarlı mənaları olan sufi ədəbiyyatında mühüm yer tutduğu kimi müqəddəs kitablarda da əks olunmuşdur. Bəzi peyğəmbərlərin hekayətində (Adəmin oğulları Habil və Qabilin, Nuhun hekayətləri və s.) quşlarla bağlı ibrətamiz epizodlarla yanaşı İncildə və Qurani-Kərimdə quşun ruhla, ilahi başlanğıcla rəmzləşən bir mənasını da görürük. Mattanın incilində hz. İsanı vəftiz edən Yəhya göyün yarıldığını və oradan enən göyərçinəbənzər İlahi ruhun İsanın başı üzərində dayandığını görür: «İsa vəftiz olunub, o anda sudan çıxdı; və budur, göylər açıldı və Allahın Ruhunun göyərçin kimi enib öz üzərinə gəldiyini gördü» (Matta III. 16-17).

Qurani-Kərimin İsra surəsinin 13-cü ayəsində deyilir:

____ ___ ___ ____ __ _ _____ ___ __ ____ ____ ____ ___

*«Hər bir insanın boynundan (açıq bir kitab kimi) bir quş asar, sonra qiyamət günü onu çıxararıq»*

***(əl-İsra 13)***

Müfəssirlər ayədəki quş sözünü əməl kitabı kimi yozurlar. Müqəddəs kitabımızın doğma dilimizə tərcüməsində akad. V. Məmmədəliyev də bu yozuma istinad edib. «Biz hər bir insanın əməlini öz boynundan asar və qiyamət günü (bütün əməllərini) açıb kitab kimi qarşısına qoyarıq». Akad. Z. Bünyadov həmin ayənin şərhində bildirir ki, «Ərəblərin təsəvvürlərinə görə, quş tale əlamətidir və o həmail kimi boyuna bağlanır».

Bu ayənin quşlarla bağlı sınamalara meylli olan ərəblərə bir öyüd kimi nazil olması, onların əlamətlərə, fallara inanmaqdansa yaxşı əməllərə səslənməsi Peyğəmbərdən (s) söylənilən hədislərdə əks olunub:

*«Nə xəstəlik, nə (quşlarla yozulan) uğursuzluq əsas deyil. Hər bir insanın quşunu (əməllərini) onun boynundan asmışıq».*

*«Hər bir allah bəndəsinin quşu (əməl kitabı) boynundan asılmışdır».* (5, 30)

* * *

Ərəblərin quş uçuşu ilə bağlı sınama və falabaxmaları elmi ədəbiyyatda müxtəlif terminlərlə ifadə edilir. Orta əsr mənbələrində bu mövzuya ən çox yer ayrılan əsər Əbu Osman Cahizin «Əl-Hayavan» əsəridir. Əsərdə bu cür sınamalar və falabaxmalar «tətayyur» adlanır. (3) Geniş yayılmış terminlərdən biri «zəcrut-tayr»dir. İyafənin mahir bilicisinə «əyyaf» deyirlər. Bəzən də ərəblər sadəcə olaraq «zəcrut-tayr» (quş hürkütmə) terminini işlədirlər. Qeyd etmək lazımdır ki, zaman-zaman «tətayyur» Sözü quş falı olmaqla bağlı həqiqi mənasından uzaqlaşıb sadəcə olaraq «uğursuzluq» məfhumunu ifadə etmişdir. Görünür quşlarla bağlı sınamalarda nəs yozum yaxşı yozumu üstələdiyindən sözün məna dəyişikliyi yaranmışdır. Qurani-Kərimin «Yasin» surəsində «tətayyur» özünün sırf

bəduğurluluq anlamına gəlməsi müşahidə olunur (Yasin 18). Zaman-zaman ərəblər nəhs hesab etdikləri bütün əşya, gün və əlamətləri «tətayyur» sözü ilə ifadə etmişlər. Belə əlamətlər isə çox olub bəzi günləri (çərşənbə) ayları (şəvval) soyuq küləyin əsməsini və s. əhatə edirdi.

Ərəblər, adətən, çökmüş bir quşu hürküdür, quş əgər sağa uçardısa bunu yaxşı, sola uçardısa pis əlamət sayardılar. (6, 20; 12, 68-69; 2, 786)

Bu cür falların antik cəmiyyətdə geniş yayılması da maraq doğurur. Yunanlar yalnız quşların uçuşuna görə deyil, həm də onların adına, görkəminə, səs xüsusiyyətlərinə görə öncəgörmələr söyləyirdilər. Bu cür fallar «avisspecio» (avis-quş, specio-baxıram) adlanırdı. Bu sahədə məşhur olan avqurlar öz nüfuzlarına görə heç də münəccimlərdən geri qalmırdılar. Onlar Spartada hökmdarlara məsləhətlər verir, Romada isə bəzən qanunvericiliyə belə təsir göstərirdilər. Fal prosesində avqurlar ağ paltar geyinir, başlarına tac qoyurdular. Təsadüfən görsənən quşun hansı quş olmasının böyük əhəmiyyəti var idi. Yalnız Şərqdən – günəşin çıxdığı yerdən uçub gələn quşların xoşbəxtlik gətirəcəyi zənn olunurdu. Eləcə də quşların dəstə ilə uçub gəlməsi də yaxşı əlamət sayılırdı. Qədim Romada döyüşə getməzdən öncə hətta toyuq və xoruzlarla fal açır, bəzən xoruz döyüşdürürdülər. Quşlar bir çox xalqlarda tale əlaməti, alın yazısı sayılırdı. Təsadüfü deyil ki, qədim şumer yazılarında quş şəkli «tale» demək idi. (bax 16)

Cavad Əli haqlı olaraq ərəblərin quş uçuşu ilə bağlı falabaxmalarını qədim ərəblərin ruhun bədəni tərk etdikdən sonra quşa dönməsi ilə bağlı təsəvvürləri ilə bağlayır və göstərirdi ki, bir çox qədim xalqların ayrı-ayrı quşların ölmüş kəslərin ruhu olması ilə bağlı inancları olmuş, onlar bu ruhların çox şeyləri bilməsinə və çox hadisələrdən xəbər verməsinə inanmışlar. Bəzi insanlar «Məntiqut-tayr» adlanan quş dilini bilmiş, xüsusilə Süleyman peyğəmbərin bu sahədə böyük məharəti olmuşdur. Qədim etiqadlara görə, quşlar məhz ruhları təmsil etdiyindən onlar insanlara doğru yol göstərmək və onları xətalardan çəkindirmək qabiliyyətinə malik olmuşlar. (2, 788-789) Buna görə də, quş dilini bilmək qeybi bilmək kimi rəmzi bir məna kəsb etmişdir. İntuitiv bir vəcdəgəlmə ilə qeybdən xəbərdar olmağa iddia edən sufilər «quş dili» anlayışından həm ilahi eşqi tərənnüm edən lirik parçalarda, həm də «Məntiqut-teyr» «Bülbülnamə» (Fəridəddin Əttar) Lisənut-tayr (Əlişir Nəvai) kimi məsnəvilərdə bol-bol bəhrələnmişlər. (1, 342, 394) Quş dili sufi ədəbiyyatında, xüsusilə hürufilikdə ariflərin öz aralarında danışdığı sirli, rəmzli bir danışıq, başqalarının anlamadığı bir söhbət mənası kəsb etmişdir. Ancaq unutmaq olmaz ki, «Quş dilindən» islamdan əvvəl, cahiliyyət şairləri də bəhs etmişlər. Uməyyənin aşağıdakı beytləri bu mənada diqqəti cəlb edir:

*«Allahın kəlamına qulaq as, gör onun nə qədər şəkli var. Sənin demək istədiyini gözəl bir tərzdə sənə öyrədir. Quşlara, heyvanlara da öz dillərini verir. Elmi onlar arasında bölüşdürüb paylayır». (14, 195)*

* * *

Ərəblər arasında quş uçuşu ilə bağlı sınamalar zaman-zaman inkişaf etmiş, onlar quşların yalnız uçuşu ilə deyil, həm də adı, səciyyəvi xüsusiyyətləri ilə bağlı yozmalar aparmışlar.

Məs.: Hüd-hüd quşu (şanapipik) onların nəzərində hidayət, doğru yol anlamı kəsb edirdi. Cahiliyyət ərəbi səfərə çıxarkən qarşısına hüd-hüd çıxardısa, səfərin uğurlu olması gözlənilirdi. Bəzən də hüd-hüd sözünün kökündəki (dağıntı, fəlakət) mənasını əsas götürüb bu quşla qarşılaşmanı pis yozardılar. (12, 68-69)

Cahiz «Hayavan» əsərində göstərir ki, hüd-hüdün başındakı pipik Allah-təala tərəfindən ona anasına göstərdiyi xeyirxahlıq müqabilində bir nemət kimi bəxş edilmişdir. Anası ölərkən hüd-hüd onun qəbrini başında düzəltmiş, aparıb digər ölü quşların atıldığı dərəyə atmamışdır. (3, 510) Ərəblər hüd-hüdün xeyir verən bir quş olmasına inanmışlar. Rəvayətə görə, Süleyman peyğəmbərin səfərlərində başqa quşlarla birlikdə onu müşaiyət edən hüd-hüd peyğəmbərə yerin altında harada su olduğunu nişan verirmiş. (3, 512) Qurani-Kərimdə Səba məlikəsinə hz. Süleymanın «bismillahir rəhmanir-rəhim»lə başlayan məktubunu məhz hüd-hüdün aparması (əl-Nəml 20-31) klassik Şərq ədəbiyyatında, xüsusilə təsəvvüf şerində bu quşla bağlı rəngarəng mənaların yaranmasına gətirib çıxarmışdır. Əttarın əsərlərində biz Hüd-hüdün Haqq yoLuna yönələn mömin bir sufi şeyxini təcəssüm etdirdiyini görürük. (1, 342, 394)

Göyərçinə gəlincə, o yunan mifologiyasında sevgi ilahəsi olan Afroditanın quşudur. Cahiliyyət ərəbləri göyərçinlə bağlı təzadlı mülahizələr söyləyirdilər. Bəzən bu sözün kökündəki (vaxtı çatmaq) mənasına istinadən göyərçinin tez bir görüşə, vüsala işarə etdiyini düşünür, bəzən (ölüm) Sözünü əsas götürüb bu quşun ölüm, ayrılıq ifadə etməsinə inanırdılar. (12, 69) Nuh peyğəmbərin (s) hekayətində məhz göyərçinin Nuhun gəmisinə meynə (və yaxud zeytun) yarpağı ilə qayıdıb

qurunun yaxın olmasını xəbər verməsi bu quşa xüsusi müqəddəslik verir. Dimdiyində yarpaq, ayaqları palçıqla qayıdan göyərçinin boynundakı həmayilin bu gözəl əməli müqabilində ona Nuhun duası ilə Allah-Təala tərəfindən əta edildiyi rəvayət edilir. Ayağındakı palçığın müqabilində onun ayaqları gözəl, qırmızımtıl rəngə boyanır. (3, 196) Nuhun gəmisində başqa bir göyərçinin ölməsi ilə digər quşların yığılıb ona nöhə deyərək, yas tutması isə klassik ərəb şerində göyərçinin kədər, qüssə, göz yaşları ilə əlaqələndirilməsinə gətirib çıxarır. İncildə vəftiz edən Yəhyanın hz. İsanın başı üzərindəki İlahi Ruhu göyərçinə bənzər bir şəkildə görməsini qeyd etmişdik. Ayrıca olaraq ərəblər göyərçinin obaya, evə bağlılığına, və onun doğru yol göstərib insanı azmaqdan xilas etməsinə inanmışlar. Cahiz göstərirdi ki, göyərçinin düzgün yol göstərməsi qabiliyyəti onun möhkəm yaddaşından və obasına bağlılığından irəli gəlir. (3, 214) Orta əsrlərdə göyərçindən məktubdaşıyan kimi istifadə edilməsi də bundan doğur.

Qeyd etdiyimiz kimi, göyərçin klassik ərəb şerində, qəm, kədər motivlərini, göz yaşlarını bildirən əsas obrazlardan sayılır. Xüsusilə, Əməvilər dövrünün qəmli məhəbbət nəğmələrində - üzrü qəzəldə bu məna güclü ifadə olunub. Əbül-Fərəc İsfəhaninin «Kitəbul-əğani» əsərindəki aşağıdakı parça bu cəhətdən maraq doğurur:

«Məcnun Allah-Təalaya dua edib şəfa tapmaq məqsədilə həccə yollanır. Əmisi oğlu Ziyad ibn Kəb ibn Müzahim də onunla idi. Bir taladan keçərkən məcnun göyərçin qurultusu eşidib dayandı və ağlamağa başladı. Ziyad ona dedi: «Nə olub? Niyə ağlayırsan? Dayanma, gəl gedək yoldaşlarımıza çataq». Məcnun cavab verdi:

*«Bir gün vadidə bir göyərçin quruldayarkən ağladın. Sənə məzəmmət edən bunu sənə uzürlu saymadı.*

*O quş qumru səsi ilə sübh açılarkən nöhə deyib sənin dərd-qəmini təzələdi...» (*5)

Ərəblərin «ğurab» (qarğa) ilə bağlı bir sıra sınamaları da vardır. Qarğa-ğürab sözü öz-özlüyündə «ayrılıq», «qəriblik» anlamına gəldiyindən onlar qarğa

olan yerdə həsrət, fəraq olduğunu zənn edirdilər. (12, 69) Qeyd etmək lazımdır ki, qarğa arxetipi bir çox xalqların mifik təsəvvüründə dərin iz buraxmışdır. E. M. Meletinski göstərir ki, qara rəngli, xoşagəlməz səsli, meyitlə qidalanan qarğa iblisanə bir quş olub ölülər səltənətini təmsil etmişdir. Bütün quşlar kimi göylərlə əlaqəli olan qarğa daim torpağı eşələyib qidasını yerdə axtardığından həm də Yerlə əlaqələndirilir və Yerlə Göy və ölülər dünyası arasında vasitəçi olur. Onun bu xüsusiyyəti, yəni yuxarı aləmlə aşağı aləm arasında mediator olması şamançılıqda daha çox nəzərə çarpır. (8, I, 245)

Qarğanın uzun ömür sürməsi onu həm də müdriklik rəmzi etmişdir. Məhz buna görə də, o, üçqat hikmət sahibi sayılan Hermesin quşu sayılmışdır. (10, 323) Bununla belə onun qara rəngli quş olması bu quşu qara saçlı gəncliyin də rəmzinə çevirmişdir. Ərəblərin bir kəsin saçının ağarmasını (ayrılıq qarğası uçdu getdi) ifadəsi ilə bildirmələri də bundan irəli gəlir. Qara rəngli, məhsuldar torpağı təsvir edərkən ərəb «Qarğası uçmamış torpaq» ifadəsini işlədirdi. (2, 795) Ərəblərin qarğa ilə bağlı bir sıra adətləri vardır. Məs: onlar bədnəzərdən qorunmaq üçün üstlərindən qarğa dimdiyi asardılar. Qarğanın qanını qurudub bədənlərindəki şişlərin üstünə qoyur və şəfa tapacaqlarına inanardılar. Adətən ərəblər ölü cəsədlə qidalanan qarğanın ətini yeməsələr də, bağırsaq xəstəliklərində ondan istifadə edirdilər. Qarğanın lələklərini sirkəyə salıb saçlarına çəkir və saçların qaralacağını düşünürdülər. (2, 794-795, 3; 450) Bütün bu çoxsaylı inanclar içərisində üstünlük təşkil edən isə qarğanın ayrılıq rəmzi olması idi ki, bu da ərəb şerində dəfələrlə müraciət edilən bir obraza çevrilmişdir.

Bəzən ərəblər qarğanın ancaq bir dəfə qarıldamasında uğursuzluq görürdülər. Əgər o iki dəfə qarıldayardısa bunu yaxşılığa yozardılar. İslamda iyafənin digər növləri kimi qarğa ilə bağlı sınamalar da bəyənilməmişdir. Rəvayətə görə, ibn Abbas qarğa səsi eşidərkən deyərmiş:

*«Allahim, səndən başqa heç kəs uğursuzluq gətirə bilməz. Səndən başqa heç kəs xeyir verə bilməz. Səndən özgə İlahi qüvvə yoxdur».*

Cahizə görə, digər quşlar barədə də ziddiyyətli təsəvvürlər var. Məs: Mərv əhli bayquş ulamasını yaxşılığa, bəsrəlilər isə pisliyə yozurdular. (3, 540) Cahiliyyət ərəbləri isə ölən adamın ruhunun bayquşa çevrilməsinə inanmışlar. Xüsusilə, əgər bir kəs qətlə yetirilərdisə ruhu bayquş olub qəbrin ətrafında hərlənər, «məni suvarın» (yəni məni qatilimin qanı ilə suvarın) deyə ulayardı. (7, 135) Buna görə də, onlar bayquşa daha çox uğursuzluq rəmzi kimi baxırdılar.

Ölən kəslərin ruhunun quş şəklində təsəvvür edilməsi bir şox xalqlarda – şumerlərdə, yunanlarda, eləcə də Babilistanda və Misirdə geniş yayılmışdı. Bəzən də quşları ruhların bələdçisi hesab edirdilər. Yaponlar isə ruh bədəni tərk edərkən quş pırıltısına bənzər səs eşidildiyini bildirirdilər. Romada imperatorlar ölərkən onların ruhunu göyə qaldırmaq üçün quş uçurdurdular. (16)

* * *

Cahiliyyət ərəbləri zaman-zaman quşlarla bağlı sınamalarını genişləndirib onu heyvanlara, bitki və əşyalara da aid etmişlər. (12, 68)

Cahizə görə, ərəblər reyhan barədə yozumlar edirdilər. «Reyhan» (gözəl ətir) sözündən olduğundan onu uğurlu bitki sayırdılar. Ancaq gözəl görsənib yaxşı ətir verməsinə baxmayaraq, tamı acı olduğundan bəzən onun bədbəxtlik gətirəcəyini düşünürdülər. (3, 457) Eləcə də dəvə ilə bağlı ərəblərin bəzən bir-birinə ziddiyyət təşkil edən müxtəlif mülahizələri olmuşdur. (12, 69)

Bütün bu sınamalar və yozumlar illərin sınağından keçmiş praktik təcrübələrə əsaslanırdı. Bununla belə, iyafət özündə ərəb mistisizmi ilə bağlı bəzi cəhətləri də cəmləşdirirdi. Təbii ki, quşlarla bağlı deyimlər, düşüncələr ilk növbədə onların ruhu təcəssüm etdirməsi və müxtəlif kosmik aləmləri birləşdirməsi ilə bağlı idi. Təəssüf ki, cahiliyyət dövrü ərəblərinin dini-mənəvi durumu ilə bağlı məlumatlar hifz edilmədiyindən biz digər xalqların mifik təsəvvürlərdən və dini təcrübələrindən fərqli olaraq quşla bağlı düşüncələrin ərəb kahinlərinin misteriyalarında hansı rolu oynadığını, ümumiyyətlə Quş-ruh rəmzinin onların mistik ayinlərində necə bir yer tutduğunu söyləməkdə çətinlik çəkirik. Ərəblərin quşlarla bağlı təsəvvürləri ətraf xalqların təsəvvürlərinə çox yaxındır. Ruh-quş konsepsiyası və ölümün quşla əlaqələndirilməsi Yaxın Şərqin bir çox arxaik dini təsəvvürlərində özünə yer edib. «Ölülər kitabı»nda (Misir) ölüm göylərə qalxan qartal şəklində təsəvvür edilir. Eynilə Mesopotamiyada da ölüləri quş halında təsəvvür edirdilər. Avropa və Asiyanın ən qədim abidələrində müxtəlif kosmik aləmləri birləşdirən Dünya Ağacının budaqlarında quşlar təsvir edilmişdir. Görünür, bu quşlar həm də əcdadların ruhunu təcəssüm etdirmişlər. (9, 185-186) Bütün bunlarla yanaşı biz şamançılıqda və digər dini-mistik sistemlərdə, eləcə də vəhdaniyyət dinlərinin mistik qollarında kahinlərin, müqəddəslərin levitasiyasını (Levitation), göylərə uçmasını iddia edən xəbərlərin mövcudluğunu görürük. Əldə olan materiallar ərəb kahinlərinin bu mistik təcrübədən yararlanıb-yararlanmaması barədə qəti bir söz deməyə əsas vermir. Ancaq sabi kahinlərin tanrı yolunda xoruz qurban kəsib onun ölüm çabalamalarına müvafiq gələcəkdən xəbər vermələri məlumdur. (13, 57)

Qurban kəsilən heyvanlarla bağlı öncəgörmələrdən biri də qara ciyərin oxunması ilə bağlıdır (Hepatscopy). Xüsusilə kəldanilər öz tanrılarına kəsdiyi qurbanların qara ciyərini oxumaqda uğur qazanmışlar. Sonra onlar bunu ağ ciyər və başqa bədən üzvlərinə də aid edirlər. Bu mistik təcrübə ibranilərə, yunanlara, romalılara və misirlilərə də məlum idi. Ərəblər də lap qədim zamanlardan qara ciyərə böyük əhəmiyyət verirdilər. Qara ciyərin qara rəngli olması, onun nifrət və qəzəbdən qaralması fikrinə gətirib çıxarmışdır. (2, 801)

İslamaqədərki cəmiyyətdə ən çox sınamalara məruz qalan cəhətlər insan və heyvanların asqırma və əsnəmələri olmuşdur. Onlar həm asqırığı həm də əsnəməni şeytandan gəlmə bir hal sayıb hər ikisini pis yozurdular. İmruul-Qeys şeirlərindən birində göstərir ki, səhərlər camaat yatarkən tezdən ova çıxır ki, heç kəs qarşısına çıxıb asqırmasın. Bəzən asqırıq müqabilində «Mənə yox, özünə qayıtsın!» və s. kimi sözlər işlədib onun şərindən qurtarmaq istəmişlər. Heyvanların asqırması da pis yozulurdu. Sonra İslamda asqırıq bəyənilmiş, ancaq əsnəmək bəyənilməmişdir. Belə ki, asqırığın mələkdən, əsnəməyin şeytandan gəlməsi düşünülmüşdür. (2, 799-800 Dini rəvayətlərdə Allah-Təala tərəfindən palçıqdan yapılmış Adəmin ruh üfürüldükdən sonra asqırıb ayılması göstərilir. 4, I, 79

Ümumiyyətlə, İslamın zühurundan sonra cahiliyyət ərəblərinin bir çox fal və sınamaları bəyənilməmişdir. Bununla belə, sözün sakral mahiyyəti ilə bağlı inamlar İslamda da özünə yer etmişdir. Rəvayətə görə, Peyğəmbər (s) qarşısına çıxan Adamların adlarına diqqət yetirir və müsəlmanların gözəl sözlər danışmasını bəyənirmiş. (2, 789, 803)

Son olaraq qeyd etmək istərdik ki, ərəblərin sınayıb-yoxladığı əlamətlərə əsaslanan qiyafət artıq İslamın yaranması ərəfəsində öz əhəmiyyətini itirir və onların daim artmaqda olan mənəvi tələbatları və ruhaniyyat yolundakı təkamülləri yeni bir dinin yaranmasını, falçılardan, kahin və ərraflardan qat-qat yüksəkdə duran bir peyğəmbərin zühurunu zəruri edir. Bu mənada hz. Məhəmmədin (s) peyğəmbərlik missiyası ərəb cəmiyyətinin yüksəlməkdə olan mənəvi təkamülünün təbii nəticəsi idi.

* * *

Cahiliyyət ərəbləri qulyabanı (ğul) və cinlərin varlığına inanmışlar. Şüurlu məxluqlar olan qulyabanılar dağlarda, dərələrdə məskən salır, öz müdhiş görkəmləri ilə insanları qorxudurdular. Ərəb şairi Təəbbata Şərranın qulyabanı ilə qarşılaşmasıyla ilə bağlı bir epizod onun poeziyasında əks olunmuşdur. Bizim fikrimizcə, qulyabanılar anadan eybəcər, qüsurlu doğulmuş insanlardır ki, cəmiyyətdə yaşamaq onlar üçün imkansız olduğundan çöllərə, səhralara qaçıb tənha yaşamağı üstün tutmuşlar.

Krımski bədəvi ərəblərin dəyişkən, etibarsız, xəyanətkar hər bir şeyi qulyabanı adlandırdıqlarına diqqəti cəlb edir. (15, 91) İmruul-Qeysin bir şeirində dəhr, qəzavü-qədər qulyabanı (ğul) adlanır.

Cinlərə gəlincə, o dövr ərəbləri bu məxluqları insanlarla qeyb aləmi arasında vasitəçi bilmiş, kahinlərin qeyblə bağlı sirləri cinlərdən əxz etməsinə inanmışlar. Bədəvi ərəblər şeir sənətinin də insanlara cinlər vasitəsilə təlqin olunmasını zənn etmişlər.

Rəvayətə görə, mələklərdən fərqli olaraq cinlər kişi və qadın olurlar. Onlar müxtəlif cildə girməyi bacarır, bəzən səhralarda ocaq qalayıb yolçuları azdırırlar. Piotrovski göstərir ki, cinlərin ğul, sılat, ıfrit kimi bir neçə növü vardır. (11, 66)

Ərəb şeirində «ciniyyə» adlanan qadınların olduqca gözəl, lakin soyuqqanlı olmasına işarə edilmişdir. Rəvayətə görə, «silat» adlanan cinlər gözəl qadın cildinə girib insan oğullarına ərə gedir, ana olurdular. Lakin günlərin bir günündə uzaq səhralarda digər cinlərin qaladığı odun işartısını görərkən «təəssüf belə etmədən ərini, uşaqlarını atıb digər cinlərə qoşulurdular». (15, 88)

* * *

İslamaqədərki ərəb cəmiyyətində sınamalar və mövhumi təsəvvürlərlə bağlı aşağıdakı qənaətləri hasil etdik:

–Cahiliyyət ərəblərinin sınamalarının əksəriyyəti müxtəlif xalqların mifik düşüncəsində dərin iz buraxmış quşlarla bağlı olmuş, ayrıca olaraq, onlarda iyafət adlanan bir elm də yaranmışdır.

–Quş uçuşu ilə əlaqədar falabaxma və sınamalar yalnız onları hürküdüb uçurtmaqla məhdudlaşmayıb, həm də ayrı-ayrı quş adlarının məna yozumları ilə bağlı olmuşdur.

–Cahiliyyət ərəblərinin heyvanların daxili orqanlarının, xüsusilə qara ciyərinin oxunması, asqıraq və əsnəmə ilə bağlı sınamaları da olmuşdur.

–Cahiliyyət ərəbləri cin və qulyabanıların varlığına inanmışlar.

## ƏDƏBİYYAT


1. Bertels E. E., Syfizm i syfiysкaya literatura, Mosкva, 1965
2. Cavad Əli, Tərixul-arab qabləl-isləm, VI. Bağdad, 1993

**3.** Əbu Osman Əmr bin Bəhr əl-Cahiz. Əl-Hayavan. III. Qahirə

**4.** Əbul-Fida ibn Kəsir, Təfsirul-Quranil-Azim, Beyrut, 1987

**5.** Əbül-Fərəc əl-İsfəhani, Kitəbul-əğani, II, Qahirə, 1969

**6.** Hanna al –Fakhuri, Istoriya arabsкoy literatyrı, I, Mosкva, Izd. inostrannoy literatyrı, 1959.

**7.** Malik Mahmudov, Xətib Təbrizi, Bakı. 1972

**8.** Mifı narodov mira, I, II, Mosкva, 1980-1982

**9.** Mirça Eliade. Kosmos i istoriya, Mosкva, 1987

**10.** N. Jyulen. Slovar simvolov, Уral LTD, 2000

**11.** Piotrovsкiy M. Jinn – Islam, Entsiкlopediçesкiy slovar. Mosкva, 1991

**12.** Sibai Bəyyumi, Tərixul-ərdəbil-arabiyyu, I, Qahirə 1959, I

**13.** Şəmsəddin ibn Abdulla Məhəmməd əd-Dəməşqi, Kitəbu nuxbətid-dəhri fi asəibil-bərri val-bəhri, Sankt-Peterburq, 1866

**14.** Uməyya ibn Əbis-Salt, Hayətuhu. Şiruhu, Dirasətu və təhqiqu Behsəm Əbülğəfur əl-Hadisi. Bağdad, 1975

**15.** Krımsкiy A. E., Arabsкaya poeziya v oçerкakh i obraztsakh. Mosкva, 1906

**16.** kekz. boom. ru\trad